2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 14 fevral 2020-ci il tarixli 188 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi üzrə qeydə alınmış namizəd Yusifova Sevil Şərif qızı 2020-ci il fevralın 14-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət etmiş, dairə seçki komissiyasının hərəkətsizliyini mübahisələndirərək pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə əlaqədar qeydə alınmış namizədlə əlaqə saxlanılmış, onun həm araşdırmada, həm də Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmək və digər hüquqları izah edilmişdir.

Qeydə alınmış namizəd şikayətini onunla əsaslandırır ki, səsvermə günü baş verən qanun pozuntuları ilə əlaqədar 10 fevral 2020-ci il tarixdə 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi dairə seçki komissiyasına (dairə seçki komissiyası) rəsmi ərizə ilə müraciət etsə də hələ də ərizəsinə cavab verilməyib.

Dairə seçki komissiyası sədrinin izahatından və dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 53/143-1 saylı qərarından məlum olur ki, qeydə alınmış namizəd S.Ş.Yusifovanın müraciətinə 2020-ci il fevralın 13-də baxılmış, araşdırmaya və iclasa dəvət edilsə də nə özü, nə də nümayəndəsi gəlmədiyindən şikayət üzrə qəbul olunmuş qərar elə həmin gün poçt vasitəsilə şikayətçinin ünvanına göndərilmişdir. Bu hal araşdırmaya təqdim olunmuş müvafiq poçt qəbzi ilə də təsdiq olunur.

Beləliklə, aparılmış araşdırma ilə qeydə alınmış namizəd S.Ş.Yusifovanın müraciəti əsassız olduğundan və onun təmin olunması üçün hüquqi əsaslar yaranmadığından təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci,112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi üzrə qeydə alınmış namizəd Yusifova Sevil Şərif qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 14 fevral 2020-ci il tarixli 188 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |